**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 2**

**Bakı şəhəri** **30 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Babək Hafiz oğlu Həsənovun Ağcabədi Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il dekabr ayının 11-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Həsənov Babək Hafiz oğlu Ağcabədi Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il iyul ayının 14-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2025-ci il dekabr ayının 11-də Dövlət Statistika Komitəsi aparatının Qiymət statistikası şöbəsinin müdiri Aqil Hüseynov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Mir-Firdovsi Talıbov və müstəqil ekspert Vəfa Nəcəfovadan ibarət komissiya tərəfindən keçirilmişdir. Həsənov Babək Hafiz oğluna müsahibə komissiyasının üzvlərindən A. Hüseynov 15 bal, M.Talıbov və V. Nəcəfova 16 bal vermiş və nəticədə iştirakçı 15.7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 15.12.2025-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Həsənov Babək Hafiz oğlunun 2025-ci il 15 dekabr tarixli apellyasiya şikayəti təmin edilməsin və Ağcabədi Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il dekabr ayının 11-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN